*Tənzilə Rüstəmxanlı. Sabir Rüstəmxanlı yaradıcılığında Cənub mövzusu // Elmi əsərlər,2019,№1(8),yanvar-iyun,s.24-33.*

UOT 821.512.162

**Tənzilə Rüstəmxanlı**,
*filologiya üzrə fəlsəfə doktoru,*
*AMEA-nın N.Gəncəvi adına Ədəbiyyat İnstitutu, dissertant*
*Azəri-Türk Qadınlar Birliyi, Azərbaycan-Türkiyə Evi*
*Bakı ş. , 528-ci məhəllə, Ə.Ələkbərov/M.Rahim küç."D"*
*e-mail:azeriturk@mail.ru*

# SABİR RÜSTƏMXANLI YARADICILIĞINDA CƏNUB MÖVZUSU

**Açar sözlər:** *milli oyanış, müstəqillik dövrü, cənub poeziyası, istiqlal mücadiləsi, vətənpərvərlik, milli ideologiya*

Azərbaycan ədəbiyyatının milli nəfəsi, şeirləri ilə istiqlalı xəyaldan, düşüncədən milli məqsədə, amala çevirməyi bacaranların ön sırasında dayanan və bütün həyatını həmin ideyaları maddiləşdirmək uğrunda mücadiləyə həsr edən Xalq şairi, müasir Azərbaycan poeziyasının görkəmli nümayəndəsi Sabir Rüstəmxanlının yaradıcılığı Cənub mövzusu ilə tamlıq, bütövlük qazanmış, onun istiqlal məfkurəsinin milli sərhədləri Arazın hər iki sahilini ehtiva etməklə Vətən sözünün həqiqi mahiyyətini özündə inikas etdirmişdir. S.Rüstəmxanlı ilk gənclik şeirlərindən başlayaraq öz milli "Mən"inin parametrlərini xalqın zaman-zaman yetişdirdiyi və yaratdığı milli-mənəvi dəyərlərin səpələndiyi tarixi torpaqlar və ərazilərlə müəyyənləşdirərək, bir tərəfdən, qələm adamı kimi bu genişlik və əzəmətdən qürur duymuş, digər tərəfdən, onu milli şüura yönəltməklə milli oyanışa xidmət etməyə çalışmışdır. S.Rüstəmxanlının Vətən anlayışı İraqda-Kərbəlada Füzulinin "dağıdılmış məzarından", "Ənəlhəq" səsi gələn qədim yurdlardan, Çənlibeldən, Misri qılıncın ədalət divanı qurduğu vilayətlərdən, "ağ atlı oğlan" Şah İsmayıl Xətainin "qanadlı at"ının süzdüyü oylaqlardan, "hörüyündən kəməndə düşmüş Arazdan", "21 Azərin qanı çilənmiş" meydanlardan keçərək, sonda bir məqamda- "Heydərbaba" yazılmış bir dildə ümumləşməklə həm də konkretləşir. "Harda bircə kəlmə sözüm yaşayır, oranı halalca yurdum sanmışam" (Sağ ol, ana dilim) deyən S.Rüstəmxanlı üçün milliliyin başlıca və heç vaxt dəyişməyən şərti, milli varlığın mövcudolma amili-ölünü diriltmək qədər böyük qüdrətə malik bir iksiri, Araz mistik obrazına qarşı daim təzadda olan canlı və ilahi bir dil-ana dilidir:

Öz Ana dilimdə haraylanarsam,
İnan, məzardan da qalxıb gələrəm!
("Üç addım yer ayır")

Ana dili yadın yaddaş üzərində hücumu başlanan çağlarda yaddaşımızın bütövlüyünü, bugünkü qloballaşma prosesində isə sərhədsiz dünya siyasəti gedərkən mədəniyyətlərin inteqrasiyası adı ilə mədəniyyətimiz basqıya məruz qaldığı bir vaxtda ədəbiyyat və mədəniyyətimizin milli müəyyənliyini qoruyaraq, onun milli müqavimətini artırmışdır (8).

S.Rüstəmxanlı üçün ana dili ilk faktoloji əsas kimi milliliyin mahiyyətini müəyyənləşdirməklə yanaşı, millətin tarixi, mənəvi, mədəni və siyasi sərhədlərini özündə ehtiva edərək, yaradıcılığındakı Cənub mövzusunun hətta sovet dönəmində belə "yad", "əlavə" bir mövzu kimi deyil, Vətənin bütöv, ayrılmaz bir hissəsinin bədii-milli təcəssümü kimi meydana çıxmasını təmin etmişdir. Həm də digər şairlərimizdən fərqli olaraq S.Rüstəmxanlı heç bir halda Cənub mövzusuna qəm-qüssə obyekti-"beyt ül hüzn" kimi baxmamış, Arazı ittiham etməmiş, onu ayrılığın, parçalanmanın səbəbi kimi motivləşdirərək qorxunc, vahiməli iblis obrazında təqdim etməklə tarixi cinayəti, xəyanət aktını təbiətin günahsız varlığının üzərinə yıxmamış, əksinə, onu bitişdirici, bütövləşdirici bağ kimi qiymətləndirmişdir. Cənub mövzusunun bu yeni çaları milli şüurun oyanışına, milli yaddaşın bərpasına yönəlmiş milli ədəbi tendensiyanın yeni məzmunda təsdiqi idi. Tənqidçi Elnarə Akimova "Çağdaş Azərbaycan şeiri içrə gəzişmələr" adlı məqaləsində Cənub mövzusunun, Təbriz həsrətinin daim poetik fikrin mərkəzində olan, həmişə işlənən və funksionallıq kəsb edən mövzulardan biri olduğunu bildirməklə bərabər, həm də haqlı olaraq, onun müəllifdən daha çox məsuliyyət və poetik istedad tələb etdiyini vurğulayır. O, daha sonra bu mövzunun uzun zaman ədəbiyyatımızda küskünlük, pessimist ovqatla müşaiyət olunduğunu qeyd edir (1,s. 156-172). Ədəbiyyatşünas alim Vaqif Məmmədov da "Azərbaycan şeirində Araz mövzusu" adlı məqaləsində Arazın ədəbiyyatımızda daha çox "dərd ortağı", "fəlakətlərin baiskarı", "giley-güzar" yeri kimi xarakterizə edildiyini, ictimai-siyasi proseslərin ədalətsiz nəticələrinin onun üzərinə yıxıldığını qeyd edir: "Təkcə XX yüzillikdə yaranan şeir nümunələri nəzərdən keçirilərkən məlum olur ki, bu mövzuya əksər Azərbaycan şairləri müraciət etmiş, adi bir axar çay olan Arazın bütün özəlliklərini tərənnüm etməklə yanaşı, hətta xalqın düçar olduğu bir çox dərd və bəlaları, zamanın diktəsi ilə baş verən ictimai-siyasi prosesləri də bir növ Arazın adı ilə bağlayaraq öz umu-küsüsünü də, giley-güzarını da, xalqın düçar olduğu fəlakətlərin səbəblərini də bədii sözün qüdrəti ilə bir növ Arazla bölüşməyə, Arazla həmsöhbət olmağa səy göstərmişlər. Araz bir növ coğrafi məkan, adi axar çay olmaqdan çıxaraq rəmzi mənada Azərbaycan şairlərinin timsalında, Azərbaycan xalqının həmsöhbətinə, həmdərdinə çevrilmişdir (4,s.17).

Sabir Rüstəmxanlı 70-80-ci illərdə Xalq şairi Xəlil Rzanın dediyi kimi, "milli şair adına iddialı" bir söz adamı olaraq bu hüznü, küskünlüyü yeniləşən ədəbiyyata daşımaqla, Arazı ittiham edən şeirlər yazmaqla milli istiqlala doğru gedən yola çıxmağın mümkünsülüyünü nəzərə alıb, bu mövzuda proqram xarakterli bədii mətnlərlə ədəbiyyatın mübariz, döyüşkən ruhunu yüksəltməyi bacardı. Şairin fikrincə, sabah bu xalq bütövlüyə, yəni o biri tayda da milli istiqlala nail olacağı, ayrı düşmüş insanlar bir-birinə qovuşacağı təqdirdə, bu çay pərişanlıq donundan çıxıb, yuxuların xeyirə yozulduğu bir ünvan kimi öz minillik, milyon illik müqəddəsliyinə qayıdacaq; bugünkü Araz sözü isə, sadəcə tarixin köks ötürməsi kimi tarixlərdə qalacaq:

Çayların da geri axmaq ehtimalı var,  
Baş çəkəni bir də gördün yumruq da çəkdi.

Dərdə dönən "Araz" sözü, "aramız" sözü
Tarix üçün bircə anlıq köks ötürməkdi.
("Ürəyin möcüzəsi")

S.Rüstəmxanlının ədəbiyyata gəldiyi dövr üçün xarakterik olmayan Araza bu yanaşmanın kökündə, bizcə, şairin, yuxarıda qeyd etdiyimiz kimi, Azərbaycan anlayışının təkcə Şimal və Cənubla məhdudlaşmaması, milli dilin, daha doğrusu, türk dillinin tarixən hökm etdiyi bütöv bir coğrafiyanı ehtiva etməsi və həmin böyük arealda onlarla Araz kimi çayın olması və həmin çayların bu qədim etnosun həyat ağacını suvarması faktı dayanmışdır. Yəni S.Rüstəmxanlı üçün Vətən heç vaxt Şimali və Cənubi Azərbaycandan ibarət olmayıb ki, ortadan axan bir çay onu iki yerə ayırsın; bu mikrovətən qitədən-qitəyə uzanan nəhəng makrovətənin bir parçası, onun döyünən ürəyinin bir hissəsi kimi təcəssüm edir.

Sən mənim dünyamın üfüqlərini
Axtarma siyasi xəritələrdə.
Mən orda bölünmüş, əyalət, azlıq…
Kağızın üstündə parça-tikəyəm,
Siyasi xəritə siyasətbazlıq (5,s.94).

Təkcə çay deyil, dağ, dərə, uçurum, vadi, dəniz, göl və s. kimi məfhumların arxasındakı predmetlərin heç biri S.Rüstəmxanlı yaradıcılığında ayrıcı, bölücü xarakter daşımır, əksinə onlar bütövlük, tamlıq simvolu, vahid Vətən obrazının tamamlayıcı elementləri kimi çıxış edir; onun Vətən şeirləri məhz bu sadaladığımız predmetlərin bir araya gəldiyi, üzvi surətdə bir-birinə bağlandığı mətn daxilində bədii monumentallığa yiyələnir. S.Rüstəmxanlının Cənub mövzusuna həsr etdiyi şeirlərin əksəriyyətinin konkret ad və mövzu çərçivəsi olmasına baxmayaraq, ilk misradaca bunun şərti olduğunu, bədii təxəyyülün sərhədlərinin misradan-misraya genişləndiyini, ilhamın həm zaman, həm də məkan ölçüsünə sığmadığını, hətta məzmunun formanı belə aşdığını görürük. Məsələn, "Türk xalqı "Olmaz!" deyir" adlı şeir 14 hecalı müxəmməs formasında yazıldığı halda, altıncı bənddən sonra şair ricətə çıxaraq həm formanı, həm də məzmun sərhədlərini aşaraq tam "sərbəstləşməklə" bir poemanın ifadə edə biləcəyi ideyanı bir şeirlə əhatə edir. Bu şeirlərin daha bir xüsusiyyəti ondan ibarətdir ki, onlarda bədii məntiq konkretdən ümumiyə doğru mərhələli şəkildə inkişaf etdiyi kimi, bəzən əksinə, həm də ümumidən konkretə qayıdış edir. "Sevil Nuri ilə yolüstü söhbət", "Təbrizlə görüş", "İnansa Təbriz deyil", "Tanrı işığı", "Ruhumuz sərhədsiz olduğu üçün" və s. şeirlərdə bu xüsusiyyəti görürük. Konkret Cənub mövzusunda yazılmış bu şeirlər sonradan bütün türk dünyasının – "sağda Türkiyə, solda Türküstan" olmaqla nəhəng bir arealın təbii-tarixi mənzərəsini bədii şəkildə göz önündə canlandırmaqla, sanki, bütöv bir etnosa "özünə-öz böyüklüyünə dön"- deyən bir poetik hökmlə başa çatır. Buna görə də S.Rüstəmxanlı "Mənim azərbaycançılığım türkçülüyümün içindədir"- deyəndə tam səmimidir:

Bir kökümüz Doğudadı, bir kökümüz Günbatanda,
Biz tarixinyoldaşıyıq dünya boyda bir vətəndə,
Min savaşın ağrısı var damarlarda coşan qanda,
Zəhər oldu qədərimiz, içdik Tanrı işığıtək
Ölüm ksdi yolumuzu, keçdik Tanrı işığıtək!

Türk, azəri, türkmən, tatar, özbək, başqırd, qırğız, qazax…
Yakutlardan üzü bəri bir qardaşdır yaxın-uzaq,
Kim aranı kəsəcəksə bu savaşı uduzacaq,
Yenmək üçün doğulmuşuq, sərtik Tanrı işığıtək!
Bir babanın övladıyıq, Türkük! Tanrı işığıtək!

Qoy yan-yana dalğalansın bir millətin bayraqları,
Günəş bizə beşik olub, xatırlayaq o çağları.
Alaq düşmən caynağından əsir düşən torpaqları,
Şəhidlərə salam verək, soraq Tanrı işığıtək,
O yurdlar ki, bizi bəklər, varaq Tanrı işığıtək! (6,s.335).

Ümumiyyətlə, şeir ruhun məchul səsini böyük bir qüvvə ilə ifadə edən, insanın xarici və daxili aləmi ilə bərabər onun bütün varlığını əks etdirən poetik və canlı bir varlıq kimi təsəvvür etsək, onda əsl vətəndaş şairlərin şeirlərinin böyük fikirlər və böyük ideallar ifadə etməsinin səbəbləri tam aydın görünər. Əsl şair odur ki, məhdud çərçivələrə üsyan etməklə, sərhədləri, hədləri dağıtmaqla, təkcə formada deyil, həm də öz bədii təxəyyülü ilə milli məfkurənin hüdudlarını genişləndirə, milli şüurun alt qatında qalmış yaddaşı bərpa edə bilir. “Ruhumuz sərhədsiz olduğu üçün” adlı şeirdə böyük Vətən obrazını mərkəzi plana çəkərək ruhunun ardıyca səfərə çıxan, yolu ümmanlardan, Şərurdan, Kərbəladan, Dədə Qorqud sazının səsi gələn yerlərdən, Göyçə gölündən, Qarayazıdan, Şəhriyar sözündən, Şumer düzündən keçən şairə “yurdun son sahilinə çatmaq üçün bir ömür bəs eləmir”. S.Rüstəmxanlı şeir və poemalarında türkü köçəri adlandıran, onun şəhər mədəniyyətinin olmadığını sübuta yetirmək üçün dəridən-qabıqdan çıxan xəstə təxəyyüllü insanları bədii məntiqlə susdurur və az qala iki qitənin sahibi olan bir xalqın öz Vətəni içərisində sərbəst gəzib-dolaşmasına köçərilik yox, böyüklük və sahiblik təpəri, tarixi bütövlük və birlik faktı kimi dəyər verir. Həm də bu halda, təkcə cansız aləm və yaxud cansız aləmin ayrı-ayrı predmetləri deyil, həm də tarixi şəxsiyyətlər, dominant adlar bədii təxəyyülün enerji mənbələri, yaddaşı bərpa edən poetik obrazlar kimi kimi çıxış edərək şairin istiqlal barədə ideya və düşüncələrini dərinləşdirir, milli birlik və milli vəhdətin bədii təməlini formalaşdırır. Sabir Rüstəmxanlının tez-tez müraciət etdiyi Şeyx Məhəmməd Xiyabani, Səttar xan, Pişəvəri, Şəhriyar və digər tarixi şəxsiyyətlər, onların şeirlərdəki və poemalardakı poetik obrazları heç vaxt parçalanmış Azərbaycanın bir tərəfinin, yəni təkcə Cənub sahilinin mənəvi dəyəri kimi çıxış etmir, onlar vahid Azərbaycanın bütövlük, bölünməzlik, tamlıq simvolu kimi bədii

mətndə təcəssüm edirlər. Bunu şairin yaradıcılığında yüksək dəyər kimi qiymətləndirən Xalq şairi Xəlil Rza Ulutürk vaxtilə şairin "Barışıq" adlı şeiri haqqında yazırdı: "Cənublu şair qardaşım yazır..." (Barışıq) əsərinin obyekti məgər yalnız cənubdurmu? Yox, burada açılan tarixi həqiqətlər cənublu, şimallı (güneyli, quzeyli) bütün Azərbaycana aiddir" **(7,s.7).** Şairin yaradıcılığının miqyaslı bədii-fəlsəfi təmayülünün fərdiliyi, yeni və müasir məzmunu və onun şeirlərinin ümummilli dəyərini ümumbəşəri yaddaşla bağlayan bağ məhz bədii məfkurənin qloballığı, daha doğrusu, obrazların böyük miqyasda bəşəri humanizmi təmsil etməsidir.

Şair üçün faciə təkcə Azərbaycan xalqının parçalanması deyil, Vyetnamın, Koreyanın,Yəmənin və s. xalqların da ikiyə bölünməsi, qardaşın qardaşdan, ananın övladdan ayrı düşməsi böyük faciədir, dünyanın ən ağır ədalətsizlik aktıdır. Şairin ABŞ-ın Vyetnamda apardığı çoxillik müharibədə məğlub olması və onun siyasi nəticəsi kimi Cənubi və Şimali Vyetnam respublikalarının birləşməsi münasibəti ilə yazdığı və 1976-cı ildə çap etdirdiyi «Bütövlük» poemasında bu yanaşmanı aydın görürük. Poemada müəllifin sətiraltı şəkildə Azərbaycanı nəzərdə tutsa da (həmin illərdə Azərbaycanın parçalanması mövzusuna senzura tərəfindən qadağa qoyulmuşdu), onun Vyetnam xalqının qələbəsinə, bir xalqın zorla parçalanmış iki dövlətinin bütövləşməsinə səmimi-qəlbdən sevindiyini görürük ki, bu da ümummilli dəyərlərin ümumbəşəri dəyərlərlə çulğaşdığını, bir mətn daxilində yan-yana yaşadığını əyani formada təsdiqləyir. S.Rüstəmxanlı üçün insan faktoru, onun taleyi, daxili dünyası, mənəvi təzadları bütün hadisə və siyasi-tarixi proseslərdən daha üstün olmaqla yanaşı, həm də Zamanla münasibətdə bədii izahını tapır, inkarı inkar fəlsəfəsinə bədii məntiq bucağından işıq salınır. Buna görə də çox tez-tez keçmişlə gələcəyi ədəbiyyat körpüsündə görüşdürən şair gələcəyə ittihamnamə yox, ibrətnamə göndərməyi üstün sayır və buraxılan səhvləri tənqid etmək yox, təshih etmək yolunu tutur. "Əbədi sevda" şeirində şair deyir:

Param-parça bölünmüş,
yürüşdən yorğun, əzik.
ancaq haqqa hamilə,
yenə tarix yolunun
bələdçisi... Bu bizik!

Yuxarıda qeyd etdiyimiz fikrin, yəni Cənuba aid tarixi şəxslərin, tanınmış ad və imzaların bədii mətnə daxil edilməsi bir tərəfdən, bütövlük simvolu olaraq milli bir idealı əks etdirirdisə, digər tərəfdən də tarixi-əxlaqi təcrübənin ibrət dərsi, qəhrəmanlıq və müdrikliyin real tarixi örnəyi kimi milli şüuru hərəkətə gətirməyə hesablanmışdı. Müəllifin 1978-ci ildə nəşr etdirdiyi "Didərginlər" adlı poeması 21 Azər faciəsindən sonra Təbrizdən Şimali Azərbaycana gəlmiş Balaş Azəroğlu, Söhrab Tahir, Hökumə Billuri və başqalarının həyatına, daha doğrusu siyasi mühacir adı altında həyatlarının davamına həsr olunmuşdu. Təbrizdən Bakıya gəlmiş, yəni sadəcə olaraq vətən içində yerlərini dəyişmiş bu insanların sovet dövləti tərəfindən siyasi mühacir kimi tanınması, onlara iranlı siyasi mühacir vəsiqəsinin verilməsi,

vətəndaşlıq hüquqlarından məhrum edilmələri şairi qəzəbləndirir, onun bütövlük idealına xələl gətirdiyi üçün bu münasibətə qəti etirazını bildirir. İrəlidə qeyd etdiyimiz kimi,s.Rüstəmxanlının əsərlərində Səttar xan, Şeyx Məhəmməd Xiyabani, Pişəvəri, Şəhriyar kimi tarixi şəxsiyyətlərlə yanaşı, Təbriz mücahidləri də böyük Vətən obrazının bədii epitetləri kimi çıxış edir və bədii məntiqin əsaslanmasına xidmət edirlər. S.Rüstəmxanlı poemada Balaş Azəroğlu, Söhrab Tahir, Hökumə Billuri kimi sənətkarların taleyindən bir bədii vasitə kimi istifadə edərək bir xalqın öz torpağında, öz vətənində hüquqsuz yaşamasına qarşı üsyan edir:

Vətəni ola-ola
şair mühacir olsun,
Ayağı ola-ola
gəzə bilməyə
babalarından yadigar torpağı!

Lakin bir məqamı da qeyd etməliyik ki, şairi xarici qəsbkarlar əlindən Vətən oğullarının öz tarixi torpaqlarında zaman-zaman mühacir kimi yaşaması ruhdan salmır, pessimizmə aparıb çıxarmır, əksinə onu inqilabi ab-havaya kökləyir, o, mühacirlik anlayışına geniş milli məna verir:

Yurdumuzdan aralı
dilimiz də mühacir!
Uzaq qəbiristanlarda
ölümüz də mühacir!
Haqqa bayraqdar olan
Xiyabani - mühacir!
Pişəvəri - mühacir!
Solmaz saydığın bağça
ayrılıqdan solurmuş.
Qardaşın evində də
mühacirlik olurmuş!

Poemanın sonunda qəhrəmanların keçmişin, bu günün müqavimətini, qəsbkarların boyunduruğunu qıraraq öz müstəqilliyinə, azadlığına qovuşacağına, Vətənin qapılarının Vətən oğullarının üzünə açılacağına dərin inam ifadə olunur ki, bizcə, bu, ədəbiyyatın, bədii fikrin öncəgörmə qabiliyyətinin daha bir nümunəsi sayıla bilər.

Yaşar Qarayev ədəbi məqalələrinin birində yazır: "Əslində, həqiqi ədəbiyyat təkcə öz varlığı, öz mövcudluğu ilə qeyri-bəşəri, qeyri-humanist cəmiyyətə, rejimə qarşı həmişə daxili bir müxalifətdə durur, onun əsaslarına qarşı yönəlir" **(3,s.514).** Həqiqətən də əgər ədəbiyyat bütövlükdə öz ruhu, pafosu ilə ehkama qarşı yönəlməyibsə, onun daxili eybəcərliklərini açıb ortaya qoymursa, həmin ədəbiyyatın mütərəqqi gücündən danışmağa hacət yoxdur. Sabir Rüstəmxanlının istər lirik duyğularını əks etdirən şeirləri olsun, istər epik lövhələri ilə yaddaqalan iri həcmli əsərləri olsun-fərq etməz, onlar hamısı siyasi formulu insanlıqdan, humanizmdən

yuxarıda tutan rejimlərə, cəmiyyətlərə qarşı kəskin mövqeyi ilə fərqlənmiş, bütün zamanlarda ümumbəşəri və milli dəyərləri ideoloji dəyərlərdən qat-qat yüksək tutmuşdur. S.Rüstəmxanlı tabu, qadağa və yasaqların ortada olduğu bir vaxtda hadisələrə, proseslərə də sərbəst şair prizmasından yanaşmaq və dəyərləndirmək yolu ilə gedərək milli istiqlal ideyasını bəyan etməkdən çəkinməmişdir. Bu mənada onun Cənub şeirlərində təsvir etdiyi hadisələr, inqilabi proseslər, milli istiqlal savaşları lokal, məhdud xarakter daşımır, bunlar ümumazərbaycan, ümumtürk və deyərdim ki, ümumdünya miqyasında istiqlala doğru yürüşün simvolu, rəmzi kimi dəyərləndirilir. Şairin Vyetnama həsr etdiyi aşağıdakı misraları böyük ümumiləşdirmə gücü ilə, dünyada baş verən proseslərin mahiyyətini dərindən duyması ilə, bütün xalqların, o cümlədən Azərbaycan xalqının müstəqilliyə qovuşmaq idealının poetik ifadəsi ilə fərqlənir:

Müstəqillik! İlk inamım, ilk həsrətim,
Müstəqillik! Xalqın məslək bayrağıdır.
Müstəqillik - hər ölkənin, məmləkətin,
Zülm, əsarət orbitindən çıxmağıdır!

İrəlidə haqqında danışdığımız, “Bütövlük” poeması əgər dünya miqyasında baş verən hadisələr fonunda Azərbaycan milli istiqlal ideyasının ifadəsiydisə, “Azərbaycan irticası” poemasında, əksinə, Cənubi Azərbaycan çərçivəsində gedən mübarizə çərçivəsində dünya xalqlarının istiqlal arzusu ifadə olunurdu. “Azərbaycan irticası” “Bütövlük” poemasının davamı kimi, onun tamamlanması kimi meydana çıxmış və 21 Azər faciəsinin birbaşa özü haqqında idi. Əsərin adı rəsmi İran mətbuatından götürülmüş, fars şovinizminin mahiyyətini, Azərbaycan xalqına qarşı düşmən mövqeyini açıb göstərməklə bərabər, ideoloji təxribatların, türkün fars içində assimilə edilməsi siyasətinin bu gün də davam etdiyini və hər il S.C.Pişəvərinin başçılığı ilə qurulan hökumətin yıxıldığı 21 Azər (dekabr) gününün bayram edilməsinin millətə həqarət olmasını nişan verirdi. Məlum olduğu kimi, Güney Azərbaycanda milli, suveren, demokratik dövlət yaratmaq sahəsində bütün cəhdlər şovinist-şahpərəst irticaçı rejim tərəfindən zorakılıqla yatrılımış, mücahidlərin böyük əksəriyyəti edamlara məruz qalmışdır. Şair poemada xalqımızın şanlı Azadlıq hərəkatının tarixinə baş vuraraq, Təbrizin bu gün müvəqqəti olaraq susduğunu, inqilab beşiyi olan bu şəhərin bir gün yenə öz qəti sözünü deyəcəyini bildirir və üzünü irticaya tutaraq cinayətlərinə görə cavab verəcəyini deyir:

İstəyirsən bir milləti
Əridəsən öz içində.
Gizlədəsən, itirəsən
Sən günəşi toz içində.
Qardaşdan da dönsə Təbriz,
İnqilabdan dönən deyil.

Bəlli olduğukimi, 1945-1946-cı llərdə Təbrizdə yaradılan milli hökumət, onun fəaliyyəti və məğlubiyyəti milli dövlət quruculuğunda həm nəzəri proqramın işlən-

məsi, həm də əməli-təşkilati problemlərin həlli sahəsində böyük təcrübə verməklə yanaşı, Şimal və Cənubda milli hislərin güclənməsinə, istiqlal ideyasının bədii həqiqətdən həyati həqiqətə istiqamətlənməsinə səbəb olmuşdu. S.Rüstəmxanlını bu mövzuda əsər yazmağa təhrik edən başlıca qüvvə də məhz milli istiqlal və bütövlük ideyasının qeyd edilən mövzu çərçivəsində bir-birini tamamlaması idi. Onun uzun müddət araşdırmalar apardıqdan, həyat həqiqətlərini illərlə şüurunda, qəlbində saf-çürük etdikdən, məzmuna uyğun forma tapmaq üçün çoxillik götür-qoylardan sonra Cənub mövzusuna müraciət etməsi həmin mövzuda yazdığı əsərlərin həm bədii-estetik keyfiyyətindən, həm də ideya-fikir mükəmməlliyindən daha aydın görünür. Çünki irəlidə qeyd etdiyimiz kimi, Cənub mövzusu daha böyük istedad, məsuliyyət, həm də şairdən daha çox siyasi fikir yetkinliyi, düşüncə qloballığı tələb edir. Xalq yazıçısı Mirzə İbrahimov vaxtilə Güney mövzusunda yazdığı məşhur "Gələcək gün" əsərinin meydana gəlməsi barədə yazırdı: "Mən bu əsərin məzmununu, surətlərini illərlə ürəyimdə gəzdirmişəm. Orada əks olunan hadisələr, insanlar və mövzu uzun müddət aramsız məni düşündürmüş, sinəmdə hərarətli hislər, həyəcanlar, iztirablar oyatmışdır. O ölkələr və xalqlar ki onların həyatı bu romana mövzu olmuşdur, əsəri yazdığım dövrdə bir günüm olmayıb ki, onları düşünməyim, onlar barədə ürəyimdə min bir yanıqlı, məhəbbətli duyğular oyanmasın..." (9).

Əgər belə bir, duyğusallıq, hissiyatlılıq dərin elmi araşdırmalarla, real tarixi hadisələrdən doğan məntiqlə tamamlanmasaydı, təbii ki, "Gələcək gün" kimi möhtəşəm və monumental bir əsər meydana gələ bilməzdi. Vaxtilə Puşkinin yaradıcılığını və demək olar ki, onun hər bir misrasını ayrı-ayrılıqda dərindən təhlil edən V.Q.Belinski onunla bağlı yazırdı: "Puşkinin poeziyası, istər rus təbiətini, istərsə də rus xarakterini təsvir etsin, hər iki halda həyatı tamamilə düzgün əks etdirir: sanki buna görə də ümumi bir səs onu "rus milli şairi" adlandırmışdır" (**2,s.**113).

Deməli, milli şair olmağın və yaxud yaradıcılığın milli mahiyyətinin birinci şərti poetik təsvirin (istər təbiət, istər insan xarakteri olsun) həyata nə qədər yaxın olması, yaxud həyatın bədii mətndəki ifadəsinin inandırıcılığı və səmimiyyəti ilə müəyyən olunur. S. Rüstəmxanlının Cənub mövzusunda yazdığı əsərlərinin hamısında bu tələblərin tam ödənildiyini və hətta şairin zamanı qabaqlayaraq bədii fəhmlə təsvirini verdiyi gələcəkdən belə Azərbaycan-türk nəfəsinin gəldiyini duyuruq. Şairin Güney və Quzey Azərbaycanda azadlıq və müstəqillik uğrunda mübarizəyə həsr edilmiş "Atəş böcəyi" poemasında Vətənin hər iki sahilində baş verən hadisələrin bir süjet çərçivəsində təsvir edilməsi (milli-azadlıq hərəkatı, Şimalda müstəqilliyin bərpası uğrunda mübarizə, sonrakı dövrdə baş verən ictimai-siyasi proseslər, ictimai xadim, Mahmudəli Çöhrəqanlının mübarizəsi) Azərbaycan xalqının milli istiqlal mübarizəsinin bədii məntiqi nəticəsi kimi səslənir.

**Ədəbiyyat :**


1. Akimova E.S. Çağdaş Azərbaycan şeiri içrə gəzişmələr. "Azərbaycan" jurn., Bakı, 2012-ci il, № 11,s.156-172
2. Belinski V.Q. Seçilmiş məqalələr. Bakı: Azərnəşr, 1948, 141 s.,s.113.
3. Qarayev Y.V. Tarix: yaxından və uzaqdan. Bakı: Sabah, 1996, 712 s.,s.514.
4. Məmmədov V.C. Azərbaycan şeirində Araz mövzusu // Naxçıvan Dövlət Universiteti. Elmi Əsərlər. Humanitar Elmlər Seriyası, 2015, № 1 (66),s.17-20.
5. Rüstəmxanlı S.X. Seçilmiş əsərləri. Bakı: "Şərq-Qərb", 2004, 344 s.,s.94.
6. Yenə orda,s.335
7. Ulutürk X.R. Ön söz / Sabir Rüstəmxanlı. Seçilmiş əsərləri. Bakı: "Şərq-Qərb", 2004,s.4-10.,s.7.
8. Şəmsizadə N.Ş. Ana dilim. "525-ci qəzet", Bakı, 2015, 30 dekabr.
9. www.trims.edu.az/.../quot-adabiyyat-quot-fanni-uzra-9-cu-sinif-ucun-darslik-15344241


***Танзиле Рустамханлы***

## ЮЖНАЯ ТЕМА В ТВОРЧЕСТВЕ САБИРА РУСТАМХАНЛЫ

**Резюме**


В литературе XX века Южная тема занимала большую часть творчества поэтов и писателей. Одним из них является выдающийся поэт Сабир Рустамханлы. Сабир Рустамханлы в своем творчестве отвел широкое место Южной теме и никогда не относился к ней как к объекту печали "бейт уль хузн". Он не винил Араз, мотивируя его как причину разлуки, распада, представляя его в образе ужасного, пугающего демона, не сваливал на невинное существование природы исторические преступления и акт предательства, напротив, он оценивал его как недилимую, соединяющую нить. Эти новые оттенки Южной темы были утверждением нового содержания национальной литературной тенденции, направленной на пробуждение национального сознания и восстановление национальной памяти.

Сабир Рустамханлы, часто обращающийся к поэтическим образам в стихах и поэмах Шейх Мухаммеда Хиябани, Саттар-хана, Пишевари, Шахрияра других исторических личностей, никогда не оценивает эти образы как духовное достояние только одной части, то есть южного побережья разделенного Азербайджана, эти образы в художественном тексте олицетворяют единый Азербайджан, как символ монолитности, недилимости, целостности.


**Ключевые слова:** *национальное пробуждение, независимый период, южная поэзия, борьба за независимость, патриотизм, национальная идеология.*

*Tənzilə Rüstəmxanlı. Sabir Rüstəmxanlı yaradıcılığında Cənub mövzusu // Elmi əsərlər,2019,№1(8),yanvar-iyun,s.24-33.*

***Tanzile Rustemkhanli***

## SOUTH THEME IN THE WORKS OF SABIR RUSTAMKHANLY

**Summary**

The theme of the literature of the twentieth century in the southern part of the great creations of poets and writers covered. One of them was Sabir Rustamkhanly, an outstanding poet who paid much attention to his southern theme in his work. S. Rustamkhanly in any case didn`t consider southern theme as "beytul huzun" is not accused of Araz, explained it as a reason for separation, disintegration and represented as a terrible demonic character, an act of betrayal of innocent nature of in the contrary, he regarded it as an additional act. This new tone of the southern theme confirmed the national literary tendency aimed at the revival of national self-consciousness and the restoration of national memory. Sheikh Mohammed Khiyabani, Sattar Khan, Pishavari, Shakhriyar and other historical figures, to which Sabir Rustamkhanly often refers, their poetic images in their poems and verses have never been the moral value of the southern coast of Azerbaijan, and they are a symbol of integrity, indivisibility, in an artistic text.

**Key words**: *national awakening, independence period, southern poetry, the struggle for independence, patriotism, national ideology.*

*Redaksiyaya daxil olma tarixi: 03.06.2019*
*Çapa qəbul olunma tarixi: 28.06.2019*

*Filologiya üzrə elmlər doktoru **Paşa Kərimov** tərəfindən çapa tövsiyə olunmuşdur.*